596:1.QXD 29.09.2024 16:19 Page 1

KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# DÎPLOMAT

№ 36 (596) 24 - 30 Sentyabr, Îlon sal. il 2024
Ji meha şûbatê sala 2003-a tê weşandin
*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî
Qiyməti: / Hêjaye: 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2

## Prezident İlham Əliyev Zəfər parkında olub


Səh. 13

## Nêçîrvan Barzanî: Bila bangeşe nebe sedema alozî û parçebûnê


Səh. 14

## Serok Barzanî: Em amadekariya 20ê Cotmehê dikin û emê serkeftineke mezin bi dest bixin


Səh. 14

Umêd Xoşnaw: Nabe ew Deste û Partî bimîne ku rê nade Koyê jî avadan bibe


Səh. 8

ALLAH VƏTƏN SEVGİSİ İLƏ ƏVƏZOLUNMAZ ŞAİRİMİZ NƏRİMAN ƏYYUBA QƏNİ QƏNİ RƏHMƏT ETSİN, MƏKANI CƏNNƏT OLSUN


Səh. 9

CÎGIRÊ SEROKÊ CIVAKA KURDÊN KAZAXSTANÊ MAMOSTE WEZÎRÊ KNYAZ SEREDANA BAKÛYÊ KIR


Səh. 17

Mesrûr Barzanî: Hilbijartin tenê ji bo pêkanîna hikûmetê nînin, belkî ji bo mana qewareya Herêma Kurdistanê jî ne

## Prezident İlham Əliyevə çoxməqsədli JF-17C təyyarələri təqdim olunub
Səh. 2

## ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ
Səh. 6

## Zəfərə gedən yol: Siyasi və hərbi müstəvidə qələbə diplomatiyasının əhəmiyyəti
Səh. 3

## Gavek berbi Zimanê Kurdî KURD dilinə doğru bir addım
Səh. 7

## 27 Sentyabr – Zəfərə aparan yol
Səh. 4

## QAZAXISTAN KÜRD İCMASININ NÜMAYƏNDƏSİ BAKIDA
Səh. 9


Səh. 18

Kurd divê ji encama Refêrandûma Kurdistanê re xwedî derkevin


Səh. 5

Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri


Səh. 10

FƏTƏLİ XAN İSGƏNDƏRXAN OĞLU XOYSKİ, DÜMBÜLÜ KÜRD TAYFASINDAN OLAN MƏŞHURAZƏRBAYCAN KÜRDÜDÜR. O, AZƏRBAYCAN CUMHURİYYƏTİNİN BAŞ NAZİRİ OLMUŞDUR


Səh. 9

Sudani: Kürdistan Bölgesi Hükümeti ile ilişkilerimizi daha da güçlendireceğiz

596:1.QXD 29.09.2024 16:19 Page 2



# Prezident İlham Əliyev Zəfər parkında olub




Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda inşası davam etdirilən Zəfər parkında olub.

Dövlətimizin başçısı parkın girişində xatirə daşının önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin başlamasından dörd il ötür. Xalqımız Azərbaycanın ərazi bütövlüyü, Qarabağın azadlığı naminə canından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad edir. Bakının 8 Noyabr prospektində inşası davam edən Zəfər parkı da bu ehtiramın təcəssümüdür.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamla inşası davam etdirilən layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində Zəfər muzeyi də yaradılır. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

# Prezident İlham Əliyevə çoxməqsədli JF-17C təyyarələri təqdim olunub




Sentyabrın 25-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngül çəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Block-III) təyyarələri təqdim olunub.

Bu təyyarələr artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Azərbaycanın müdafiə naziri və Pakistan Aviasiya Kompleksinin sədri vitse-marşal Hakim Raza dövlətimizin başçısına təyyarələrin taktiki-texniki xüsusiyyətləri, istismar qaydaları və digər göstəriciləri barədə məlumat verdilər. Bildirildi ki, JF-17C (Block-III) birmühərrikli çoxməqsədli döyüş təyyarəsidir.

Təyyarə hava-hava və hava-yer döyüş qabiliyyətinə, eləcə də orta və aşağı hündürlüklərdə yüksək döyüş manevrinə malikdir, effektiv atəş gücünə görə seçilir.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda ordu quruculuğu geniş vüsət alıb. Xüsusilə Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub, Silahlı Qüvvələrimizin müasir dövrün çağırışları əsasında komplektləşdirilməsi işləri uğurla davam etdirilir. Dövlətimizin başçısının tapşırığı ilə yeni ordu birləşmələri və qoşun növləri yaradılır, şəxsi heyətin döyüş hazırlığı yüksəldilir. Eyni zamanda, Ordumuzun hərbi-texniki təchizatı məsələsi Ali Baş Komandanın xüsusi diqqət mərkəzindədir. Yeddinci çağırış Milli Məclisin ilk iclasındakı nitqində hərbi gücümüzün artırılmasını bir nömrəli vəzifə olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir".

Milli müdafiə sənayemizin inkişaf etdirilməsi, eyni zamanda, xarici ölkələrlə hərbi sahədə əməkdaşlıq, yeni müqavilələrin imzalanması da xüsusi vurğulanmalıdır. Azərbaycanın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlıq etdiyi ölkələrdən biri də qardaş Pakistandır. Prezident İlham Əliyevin bu ilin iyulunda Pakistana dövlət səfəri iki ölkə arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə yeni təkan verib. Azərbaycan və Pakistan beynəlxalq platformalarda daim bir-birinə qarşılıqlı dəstək göstərir və həmrəylik nümayiş etdirirlər.

# Serok Barzanî: Berdêla azadiyê giran e



Serok Barzanî di salvegera Referandûma Serxwebûnê de peyamek belav kir. Serok Barzanî di salvegera Referandûma Serxwebûnê de peyamek belav kir û got, "Azadî tiştê herî biha yê hebûnê ye lewma berdêla wê giran e."

Îro salvegera 7an a Referandûma Serxwebûnê ya Başûrê Kurdistanê ye.

Serok Barzanî bi rêya hesabê xwe yê Xê malikeke helbesta Mutenebî ya bi Erebî belav kir û got:

Bi tiştekî kêmtirî stêrkan razî nebin." "Belê, em dixwazin ji Îraqê veqetin: Ji sedî 92,7"

25ê Îlona 2017an Referandûma Serxwebûnê ya Başûrê Kurdistanê hat kirin.

Ji sedî 72yê xelkê Başûrê Kurdistanê beşdarî Referandûmê bû û sedî 92,7ê wan dengê "Belê" da û got, "Em dixwazin Başûrê Kurdistanê ji Îraqê veqete."

Îraq û hinek welatên cîran piştî Referandûmê zexteke mezin li başûrê welêt kir. Wekî mînak, Îranê sînorên di navbera Başûr û Rojhilatê Kurdistanê de girtin û Îraqê balafirgeh girtin.

# Nêçîrvan Barzanî ji bo hilbijartinên Parlamentoya Kurdistanê bang kir



Nêçîrvan Barzanî ji bo hilbijartinên Parlamentoya Kurdistanê ji aliyan xwest ku kampanyayeke "şaristanî û aştiyane" bimeşînin. Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî bi Serpereştyarê Îdareya Serbixwe ya Soranê Helgurd Şêx Necîb û berpisên herêmê re civiya.

Serokatiya Herêma Kurdistanê li ser civînê daxuyaniyek belav kir.

Li gorî daxuyaniyê, di civînê de geşepêdan, bipêşxistina herêmê û mijara hilbijartinan hatin gotubêjkirin.

Serokatiya Herêma Kurdistanê got, "Di hevdîtinê de li ser plan û programên paşerojê yên kar û projeyên herêmê û her wiha çawaniya çareserkirina pirsgirêk û kêmasiyan û dabînkirina pêwîstiyan danûstandin hatin kirin."

Di daxuyaniyê de hat ragihandin ku Serokê Herêma Kurdistanê bi armanca baştir xizmet herêmê bê kirin, piştgiriya xwe ya tam ji Îdareya Soranê re tekez kiriye. Nêçîrvan Barzanî pesnê Serpereştyarê Îdareya Serbixwe ya Soranê û berpirsên yekeyên îdarî da.

Her wiha Barzanî ew kar û xizmetên ku Îdareya Soranê pêşkêş kirine û bipêşketin û geşepêdana herêmê bilind nirxand. Kampanyayên hilbijartinên Parlamentoya Kurdistanê û amadekariyên pêvajoya dengdanê mijareke din a civînê bû. Nêçîrvan Barzanî bal kişand ser giringiya hilbijartinan û ji bo bi awayekî serkeftî hilbijartin derbas bibin ji hemû aliyan xwest ku ku kampanyayeke "şaristanî û aştiyane" bimeşînin.

# Mesrûr Barzanî Pêşangeha Navdewletî ya Avahîsaziyê li Hewlêrê vedike




Serokwezîrê Herêma Kurdistanê Mesrûr Barzanî Pêşangeha Navdewletî ya Avahîsaziyê li Hewlêrê vedike.

Serokwezîr Mesrûr Barzanî îro 24ê Îlonê Pêşangeha Navdewletî ya Avahîsaziya Iraqê (Conistruct Iraq) li Hewlêrê vedike.

Bi dehan kompanyayên avahîsaziyê yên navxwe û biyanî beşdarî pêşangehê dibin û berhemên xwe yên herî dawî nîşan didin. Armanc ji vekirina pêşangehê, pêşxistina warê avahîsaziyê û baştirkirina kalîteya amûr û keresteyên avahîsaziyê ye.

596:1.QXD 29.09.2024 16:19 Page 3



# Zəfərə gedən yol: Siyasi və hərbi müstəvidə qələbə diplomatiyasının əhəmiyyəti



Ermənistanın işğal siyasətinə son qoyan 44 günlük Vətən müharibəsi Azərbaycan tarixinin ən parlaq səhifələrindən biridir. Bu şanlı Zəfər Yürüşü ilə Ermənistanın işğal faktına son qoyuldu və Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan qəbul edilən ərazi bütövlüyünü təmin edilməsi ilə tarxi ədalət bərpa olundu. Azərbaycan beynəlxalq təşkilatların ərazi bütövlüyümüz və suverenliyimizlə bağlı çıxarmış olduğu qərar və qətnamələri təkbaşına icra etdi. Azərbaycan xalqı özünə məxsus olanı heç kəsə güzəştə getməyəcəyi əzmini bütün dünyaya nümayiş etdirərək, əzmkarlığını və iradəsini ortaya qoydu. Bunu Siyasətinfoya Milli Məclisin deputatı Aqil Məmmədov deyib.

O qeyd edib ki, Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib: "İşğalçı döyüş meydanında məğlub olaraq kapitulyasiya aktına imza atmağa məcbur oldu. Tarixi Şuşa şəhərinin strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll etdi. 2020-ci ilin 10 noyabrında rəsmi İrəvanın kapitulyasiyasının təcəssümü olan üçtərəfli bəyanat imzalandı. Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Həmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. 2022-ci ilin avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bu Azərbaycan tarixinin qələbə salnaməsinin şərəfli bir dövrüdür. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı qüvvələrini məhv etməyib, o, erməni mifini də məhv etdi. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və Azərbaycan gücünü, qüdrətini göstərdi. Reallıq odur ki, Azərbaycan Ordusunda müharibə dövründə bir dənə də fərari olmayıb. Təcavüzkar erməni əsgəri haqq uğrunda savaşan Azərbaycan əsgəri qarşısında dura bilmədi. Məhz Bakıda yaradılan Hərbi Qənimətlər Parkına gələn hər bir insan Azərbaycan Silahlı Qüvvələrinin gücünü və iradəsini görür. Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər keçirildi. Paradda 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı türk əsgər və zabitləri iştirak edib. Zəfər paradını Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul edib. Paradda həmçinin yerli və xarici rəsmi qonaqlar, diplomatik korpusun nümayəndələri də iştirak edib".

Millət vəkili hesab edir ki, Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına Qələbəni bəxş etmiş Müzəffər Orduya çevrilib: "Azərbaycan Ordusu döyüş hazırlığına görə MDB məkanında ön sıralardadır. Ordumuz maddi-texniki təchizat, döyüş hazırlığı və döyüş ruhu baxımından tam üstünlüyə malikdir. XXI əsrin müharibəsini aparan Azərbaycanın döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərbi məktəblərində öyrənilir. 44 günlük müharibə həm də Azərbaycanın mahir diplomatiyasını da nümayiş etdirdi. Bu sözsüz ki, Qələbə diplomatiyası idi. Müharibə dövründə Prezident İlham Əliyev tərəfindən verilmiş müsahibənin hər biri Azərbaycanın diplomatik uğurudur. Bunun beynəlxalq təşkilatlar vasitəsilə ölkəmizə təzyiqlər cəhdinin qarşısı müvəffəqiyyətlə alındı. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr mediamızın fəaliyyətinə istiqamət verdi. Müzəffər Ali Baş Komandanın müharibə ilə bağlı müsahibələri XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası hesab edilir. Müsahibələr ardıcıl, dünyanın ən müxtəlif ölkələrinin, müxtəlif kanalları vasitəsi ilə aparılırdı. Bu müsahibələri real mübarizə və silah üsuluna çevirən Azərbaycan Prezidenti Vətən müharibədə də qalib gəldi. Həmin nitqlərdə gerçəklikdən doğan konkretlik, qətiyyət, iradə əsaslı şəkildə yer alırdı. Eyni zamanda müharibə dövründə Prezident İlham tərəfindən səsləndirilən nitqlər öz emosionallığı ilə fərqlənirdi. Dövlət başçısının gələcəyə ümid dolu sözləri insanları itkilər qarşısında sönməməyə, əksinə qürurla durmağa ruhlandırdı. Vətəndaşlar müharibə dövründə Prezidentin simasında artıq ölkəni idarə edən rəsmi şəxslə bərabər, doğma insan, xalqının yenilməz övladını görürdülər. Prezident İlham Əliyevin müharibə ilə bağlı nitqlərini və çıxışlarını bütün ölkə əhalisi təqdir etdi. Sözsüz ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi Azərbaycana əlavə güc verdi. Tarixi Şuşa Bəyannaməsini imzalayaraq Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı. Bu müttəfiqlik özünü hər yerdə göstərir. İki qardaş ölkə rəhbərinin Qələbə paradını birgə qəbul etməsi beynəlxalq ictimaiyyətə verilmiş mesaj idi. Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər paradında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı türk əsgər və zabitləri iştirak edib. Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi xalqların tarixində əbədi qalacaq qürurverici hadisədir. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirib".

Deputat Vətən müharibəsində müşahidə edilən milli birliyin önəmindən bəhs etdi: "Dəmir yumruq" milli birliyin və gücün rəmzi oldu. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin çirkin kampaniyalarına qarşı fədakarlıqla mübarizə apardılar. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşları görünməmiş həmrəylik nümayiş etdirdi. Vətən müharibəsi zamanı siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətlər imzalaması milli məsələlərdə ölkədə hər hansı fikir ayrılığının istisna olunduğunu göstərdi. Bu bir reallıqdır ki, II Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, milli birliyi daha da gücləndirdi. Amma çox təəsüf ki, Azərbaycan xalqının tarixinə əbədi olaraq yazılmış Qələbə münasibətilə ölkə siyasilərinin birgə bəyanatında AXCP, Müsavat Partiyası və "Milli Şura" iştirak etməyib. Milli sevinc və qürurun təcəssümü olan birgə bəyanatda radikalların iştirak etməməsi onların antimilli xislətini bir daha göstərmiş olub. Artıq Azərbaycanın tarixində yeni səhifə başlayıb. Azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirib. Təbii ki, Böyük Qayıdış strategiyası yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Bununla yanaşı Qələbənin əbədiləşdirilməsi və müharibə iştirakçılarına dövlətimizin diqqət və qayğısı ən yüksək səviyyədədir. Vətən müharibəsində qələbə münasibətilə "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal təsis edilib. Azərbaycan əsgərinin İkinci Qarabağ müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin təbliği, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi inşa olunur. Eyni zamanda şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. Qazi və şəhid ailələrinə dövlət tərəfindən lazımi köməklik göstərilməkdədir".

Aqil Məmmədov ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasının tarixi hadisə olduğunu bildirib: "Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində 23 aprel 2023-cü il tarixində "Laçın" sərhəd-buraxılış məntəqəsi quruldu. "Laçın" sərhəd-buraxılış məntəqəsinin qurulması böyük Şuşa Zəfərindən sonra əldə edilmiş ən böyük və əhəmiyyətli hərbi-siyasi qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Fəxarət rəmzimiz üçrəngli, ay-ulduzlu dövlət bayrağımız sərhəddə dalğalandırıldı. Bununla da Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Həmçinin üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması artıq zərurətə çevrilmişdi.

Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması vacib idi. Məhz Azərbaycan konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü ildə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da müvafiq şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərksilah olunması təmin edildi. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk etməsi, qeyri-qanuni erməni silahlı dəstələrinin buraxılması, eyni zamanda, paralel şəkildə bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi Azərbaycanın növbəti Qələbəsi idi. Antiterror tədbirlərinin nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindəin 15 oktyabr tarixində Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağının qaldırılması tarixinin ən parlaq səhifəsi olmaqla yanaşı xalqımız üçün qürurverici bir tarix idi. Azərbaycan dövləti və xalqı bundan sonra qalib kimi əbədi təhlükəsiz şəraitdə yaşayacaq".

# 27 Sentyabr – Zəfərə aparan yol

Qafqazın əlverişli coğrafi mövqeyi tarixən bu əraziləri böyük imperialların mübarizə meydanına çevirmiş və bu ərazilər uğrunda çox qan tökülmüşdür. Avropa ilə Asiya arasında keçid rolunu oynayan ərazi təbii ki, bir qitədə yaranan imperiyanın



digər qitəni də işğal etməsi üçün bir keçid rolunu oynamışdır. Ermənilər tarix boyu əllərinə fürsət düşdükcə Azərbaycanlılara qarşı vəhşilik törətmiş və onları ata-baba yurdlarından çıxarmağa çalışmışlar.

1988-1994-cü illər ərzində xarici havadarları tərəfindən silahlandırılan ermənilər Azərbaycan ərazisinin 20%-ni işğal etmişlər. İşğal zamanı yaşayış məntəqələri dağıdılmış, dinc əhali amansızcasına qətlə yetirilmişdir. Başlıbel, Ağdaban və Baqanis-Ayrım kəndlərində törədilmiş vəhşiliklər erməni faşizminin əsl simasını göstərir. Dinc azərbaycanlılara qarşı törədilən qətliamlar içərisində Xocalı qətliamı xüsusi qəddarlığı ilə seçilir. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı həyata keçirmişdir. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülmuş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmiş, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olmuşdur.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin iqtisadiyyatına və mədəni irsinə də ağır zərbə vurmuşdur. Ermənistan bu müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərini acınacaqlı vəziyyətə salmış, şəhər və kəndlərdə infrastrukturu tamamilə məhv etmiş, Azərbaycana milyardlarla dollar dəyərində maddi ziyan vurmuşdur.

Uzun illər ərzində Ermənistan işğalçı siyasətini davam etdirmiş, ərazilərimizdə təxribatlar törətmiş, təmas xətti boyunca yaşayan dinc əhalimizə mütəmadi atəş açmış, onların rahat yaşamasına imkan verməmişdir.

2016-cı il aprel ayında ermənilərin törətdikləri təxribatlara cavab olaraq Lələtəpə və 2020-ci il iyul ayında Tovuz döyüşləri zamanı Azərbaycan bu işğalla barışmayacağını nümayiş etdirmişdir. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmamış, Azərbaycana qarşı diversiyaları davam etdirmiş, erməni siyasətçiləri xalqımıza qarşı aşağılayacı və təxribatçı bəyanatlar vermişlər.

2020-ci il 27 sentyabr tarixində atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhə boyu Azərbaycan silahlı qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı Tərtər, Ağdam, Füzuli və Cəvrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladılar. Nəticədə,



hərbi qulluqçular ilə yanaşı Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olmuşdur. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri vermişdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədi ilə 27 sentyabrda bütün cəbhə boyu əks-hücuma keçən Azərbaycan Ordusu 1990-cı illərin əvvəlində baş verən Birinci Qarabağ Müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş əraziləri işğaldan azad etməyə başladı. 44 gün davam edən Vətən Müharibəsi Şanlı Azərbaycan Ordusunun gücünü göstərərək Azərbaycanın qələbəsi ilə başa çatmışdır. Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri Şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. 1 dekabr tarixi etibarı ilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Bu 44 günlük müharibə Azərbaycan torpaqlarının uzun müddət davam edən işğalına son qoydu.

Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Düşmən torpaqlarımızdan qovuldu, ədalət və beynəlxalq hüquq bərpa olundu. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacaqdır.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabr – Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması ilə bağlı 2020-ci 2 dekabr tarixində Sərəncam imzalamışdır. Bu addım şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir. Eyni zamanda, Bakıda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi inşa olunacaqdır. Bakıda, şəhərimizin ən gözəl yerlərinin birində İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacaqdır.

Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Aparılan uğurlu siyasət nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə



asılılığın azaldılması–bütün bunlar ordu quruculuğu sahəsində məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.

Azərbaycan Ordusu Cənubi Qafqazın ən qüdrətli ordusudur. Ötən illər ərzində ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrdə aparılan islahatlar və müşahidə etdiyimiz keyfiyyət dəyişiklikləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində apardığı məqsədyönlü işlərin nəticəsidir.

Müharibə başa çatandan bu günədək 150-dən çox mülki şəxs və hərbçi minaya düşərək həlak olmuş və ya öz sağlamlığını itirmişdir. Obyektiv həqiqətlərin beynəlxalq aləmə çatdırılması üçün çalışan jurnalistlərin sülh dövründə öz peşə vəzifələrinin icrası zamanı həlak olması faktı dünya jurnalistləri tərəfindən qınanılmalıdır. Dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar Ermənistanı mina xəritələrini vermədiyinə görə qınamalı və rəsmi İrəvan hüquqi məsuliyyət daşımalıdır.

Yaralanmış müharibə iştirakçılarının reabilitasiyası və onların sosial məsələlərinin həlli istiqamətində görülmüş işlər sübut edir ki, dövlət hər zaman öz əsgərinin yanındadır. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımıza sancmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizə həsr olunmuş silsilə tədbirlər həyata keçirilir. Azərbaycan xalqı mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün Şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Şəhid və qazi ailələrinə dəstək göstərilməsində Azərbaycanda milli həmrəylik yaşanır və bu məqsədlə bütün aidiyyəti dövlət qurumlarının potensialı səfərbər olmuşdur.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki şəxslər, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycanın tarixinə Qələbə səhifəsi yazmış Prezidentə xalqın etibarı və ehtiramı sonsuzdur.

Prezident İlham Əliyev hərbi sahədə olduğu kimi diplomatik və informasiya savaşı cəbhəsində də misilsiz rəşadət göstərmiş, Azərbaycana qarşı informasiya blokadasını yarmış, müharibənin gedişində və müharibədən sonra onlarla aparıcı xarici KİV-ə müsahibələr vermişdir. Bu müsahibənin hər biri Azərbaycanın diplomatik uğurudur – beynəlxalq təşkilatlar vasitəsilə ölkəmizə təzyiqlər cəhdinin qarşısı müvəffəqiyyətlə alınmışdır.

Xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının ürəyi 44 gün ərzində tarixi Vətəni ilə bir döyünürdü.

Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu. Azərbaycan Ordusu şəhidlərin qanını yerdə qoymadı. Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.

# Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri



**Cəmil HƏSƏNLİ**
*Tarix elmləri doktoru, professor*

***“Media forum” saytı tarixçi alim Cəmil Həsənlinin “Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri (1920-1923)” araşdırmasını oxuculara təqdim edir.***

***(Əvvəli ötən sayımızda)***

Teleqramlarının birində yoldaş Çiçerin bəyan edir ki, mən onu bu məsələlərdə ittiham edirəm. Lakin əgər söhbət etirazdan gedirsə, mən gərək onlarla etiraz bəyan edəm. Bu anlaşılmazlıqların olmaması üçün lap əvvəldən bu satqın Ermənistana münasibətdə möhkəm siyasət yeritmək lazım idi”.

* * *

Moskvada və İrəvanda aparılan danışıqların nəticəsi kimi, 1920-ci ilin avqust ayının 10-da tərəflər arasında altı bənddən ibarət müqavilə bağlanmışdı ki, onun dörd bəndi bilavasitə Azərbaycanla süni şəkildə yaradılmış ərazi mübahisələrinə aid idi. Müqavilənin giriş hissəsində Sovet Rusiyası Ermənistan Respublikasının istiqlaliyyətini və tam müstəqilliyini tanıyırdı.

Birinci maddəyə görə, RSFSR ordusu ilə Ermənistan Respublikası ordusu arasında hərbi əməliyyatlar 1920-ci ilin avqust ayının 10-u saat 12-dən etibarən başa çatmış hesab edilirdi.

Müqavilənin ikinci maddəsində qeyd olunurdu ki, bu sazişlə müəyyən edilmiş Ermənistan qoşunlarının yerləşdiyi zolaqlar istisna olmaqla mübahisəli vilayətlər Qarabağ, Zəngəzur qəzaları və Naxçıvan diyarı Sovet Rusiyasının qoşunları tərəfindən tutulur.

Müqavilənin üçüncü bəndinə görə, sovet ordusunun tutduğu mübahisəli ərazilər bu ərazilərin hüquqi baxımdan Ermənistan Respublikasına və Azərbaycan SSR-ə məxsusluğunu həll etmir. Bu ərazilərin müvəqqəti tutulması RSFSR-lə Ermənistan arasında yaxın gələcəkdə imzalanacaq sülh müqaviləsi ilə müəyyən ediləcək Azərbaycanla Ermənistan arasında ərazi mübahisələrinin dinc yolla həllinə xidmət etməlidir.

Müqavilənin dördüncü bəndinə görə, hərbi əməliyyatların dayandırılması ilə müqavilədə olan tərəflər həm mübahisəli ərazilərdə, həm də sərhədyanı ərazilərdə hərbi qüvvələrin toplanmasını dayandırırdılar.

Beşinci maddəyə görə, qarşıda RSFSR-lə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanana qədər dəmir yolunun Şaxtaxtı-Culfa hissəsinin istifadəsi Ermənistan Dəmiryol İdarəsinə verilirdi. Lakin oradan hərbi məqsədlərlə istifadə edilə bilməzdi.

Altıncı maddəyə görə, RSFSR təminat verirdi ki, sovet ordusunun tutduğu xəttin arxasında qalan Ermənistan Respublikasının bütün hərbi hissələri maneəsiz olaraq Ermənistana buraxılacaqlar. Müqaviləni RSFSR tərəfindən səlahiyyətli nümayəndə B.Leqran, Ermənistan tərəfindən isə A.Camalyan və A.Babalyan imzalamışdılar.

Avqustun 13-də G.Çiçerin Rusiya-Ermənistan müqaviləsi haqqında RK(b)P MK Siyasi Bürosuna məlumat verdi və müqavilə bəyənildi. Rusiya ilə Ermənistan arasında müqavilənin belə tələm-tələsik bağlanması həmin tarixdə Türkiyə ilə Antanta arasında imzalanmış Sevr müqaviləsi ilə bağlı idi. Sevr müqaviləsi ermənilərə böyük imtiyazlar vəd etdiyindən rus-sovet diplomatiyası ehtiyat edirdi ki, Ermənistan bütövlükdə Antantanın təsirinə düşə bilər. Çiçerini Ermənistanla müqavilənin bağlanmasını sürətləndirməyə vadar edən başlıca xarici amil məhz Sevr müqaviləsi idi. Hətta Rusiya ilə Ermənistan arasında imzalanmış 10 avqust müqaviləsi diplomatik bir sənəd olaraq hələ imzaya hazır olmasa da, Moskvanın təkidi ilə Ermənistandakı sovet nümayəndəsi Leqran onu imzalamalı və Sovet Rusiyasının mübahisə obyektinə çevirdiyi Azərbaycan ərazilərini Ermənistana vəd etməli olmuşdu.

Ermənistanın rəhbər dairələri Moskvaya hazırladıqları məruzələrdə tez-tez xatırladırdılar ki, Gürcüstan və Azərbaycanla müqayisədə guya İngiltərə Ermənistana böyük əhəmiyyət verir. Bunu ermənilər onunla əsaslandırırdılar ki, guya bir tərəfdən Ermənistan öz coğrafi vəziyyətinə görə Orta Şərq ölkələrində Britaniya hökmranlığını yaymaq üçün quru körpü rolunu oynayır, digər tərəfdən isə “Ermənistan müsəlman və türk dünyası üçün hiyləgərcəsinə istifadə oluna bilən pazdır”.

Sovet siyasətinə gəldikdə isə sənəddə əsaslandırılırdı ki, əgər Antanta və onun əlaltıları “Osmanlı zülmü altında olan Türkiyənin məzlum xalqlarının azadlığı” şüarından istifadə fikrinə düşsə, Kiçik Asiyada uğur qazana bilər, “ həmin halda Ermənistan bu azadlıq təşəb-

həmin halda Ermənistan bu azadlıq təşəb-




büsünü öz əlinə almaq üçün lazımdır ki, indiki Türkiyənin ərazisində bufer dövlət yaratsın. Bu dövlət əgər təmiz sovet hökuməti olmayacaqsa da, hər halda Sovet Rusiyasının təsir orbitinə daxil olan bir dövlət ola bilər”.

* * *

Əslində, Rusiya-Ermənistan müqaviləsində Azərbaycanın mübahisəsiz sayılan ərazilərinin mübahisə obyektinə çevrilməsinə sovetləşmənin ilk günlərindən hazırlıq gedirdi. Bunu hiss edən Azərbaycana ezam olunmuş Serqo Orconikidze 1920-ci ilin iyun ayının 19-da Vladimir Lenin və Georgi Çiçerinə vurduğu teleqramda məlumat verirdi ki, Qarabağ və Zəngəzurda sovet hakimiyyəti elan edilib və adı çəkilən hər iki ərazi özünü Azərbaycanın bir hissəsi hesab edir. O xəbərdarlıq edirdi ki, “Azərbaycan Qarabağsız və Zəngəzursuz heç bir halda keçinə bilməz. Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycan nümayəndəsini Moskvaya çağırıb onunla birlikdə Azərbaycan və Ermənistana aid bütün məsələləri həll etmək lazımdır. Bunu Ermənistanla müqavilə bağlanana qədər etmək lazımdır. Ermənilərlə Zaqatalaya bənzər hadisələrin təkrar olunması bizi burada tamamilə batırar”.

Sovet Rusiyası ilə Ermənistan arasında Azərbaycandan xəbərsiz imzalanmış 10 avqust müqaviləsi mərkəzi bolşevik hökumətinin, xüsusilə Sovet Rusiyası XXİK-nin Azərbaycanı gözdən salmaq siyasətinin bilavasitə nəticəsi idi. Hətta bu müqavilədən sonra Ermənistan ərazi və sərhəd məsələlərinə aid hər hansı məsələni Azərbaycanla müzakirə etməyə ehtiyac belə duymurdu. Azərbaycan xarici işlər komissarı M.D.Hüseynovun mübahisəli məsələləri müzakirə etmək üçün konfrans çağırmaq təklifinə cavab olaraq avqust ayının 23-də Ermənistanın xarici işlər naziri Ohancanyan bildirirdi ki, “Ermənistan hökuməti ilə RSFSR-in nümayəndəsi Leqran arasında imzalanmış 10 avqust 1920-ci il tarixli ilkin müqaviləyə uyğun olaraq Ermənistanla Azərbaycan arasında ərazi mübahisələri yaxın gələcəkdə Ermənistanla Rusiya arasında bağlanacaq sülh müqaviləsi əsasında həll edilməlidir”.

Azərbaycan tərəfinin Qazaxda keçirilməsi nəzərdə tutulan bu konfransa Azərbaycanı təmsil edəcək iki erməni (İ.Dovlatov və A.Mikoyan) və bir gürcüdən (Lominadze) ibarət nümayəndə heyəti təyin etsə də, ermənilər bu konfransda iştirakdan imtina etdilər.

Ermənistanın belə arxayın mövqeyi onunla bağlı idi ki, 1920-ci ilin may ayında onlar Sovet Rusiyasından xahiş etmişdilər ki, Azərbaycanla olan mübahisəli məsələlərin həllində vasitəçi olsunlar, lakin Karaxan Sovet Rusiyasının və

olsunlar, lakin Karaxan Sovet Rusiyasının və

Azərbaycan hökumətinin adından cavab vermişdi ki, “qarşılıqlı milli qırğınlardan qaçmaq üçün mübahisəli ərazi məsələləri həll edilənə qədər həmin mübahisəli yerlər rus Qırmızı Ordusu tərəfindən tutulacaq. Bu barədə artıq rus hərbi komandanlığına əmr verilib”.

İki ölkə arasındakı ərazi mübahisələrində Ermənistana bəraət qazandırmaq üçün Mərkəzdə bəzi rəhbər işçilər yalan danışmaqdan, təxribat uydurmaqdan belə çəkinmirdilər. Hələ müqavilə imzalanmazdan xeyli əvvəl xarici işlər komissarı Çiçerinin Leninin adına hazırladığı xatırlatmada qeyd olunurdu ki, Azərbaycan hökuməti Qarabağa, Zəngəzura, Naxçıvanla birlikdə Şərur-Dərələyəz qəzasına iddiasını bəyan edib: “Bu yerlərin böyük hissəsi faktiki olaraq Ermənistan Respublikasının əlindədir. Azərbaycan bu əraziləri ələ keçirmək üçün öz hərbi hissələrini göndərməlidir, yəni həmin əsgərləri ki, onlar sovet hakimiyyətinə qarşı dayanırlar. Tatar (azərbaycanlı - C.H.) hissələrini ermənilərə qarşı göndərmək tamamilə yolverilməzdir və bu, böyük cinayət olardı.

Qeyd edilən vilayətlərə türklərin hücum etdiyi indiki vaxtda bu xüsusilə yolverilməzdir. Əgər bu hissələr ora göndərilsə, türklər həmin dəqiqə əllərini Azərbaycanın müsəlman hissələrinə uzadacaqlar. Ümumiyyətlə, bu hissələrin məsələsi kifayət qədər mürəkkəb məsələdir. Onlar artıq üsyan qaldırır və türklərin yaxınlaşması bu meyli daha da gücləndirəcək. Ən yaxşısı onları İrana göndərmək olardı, lakin mən kifayət qədər məlumatlı deyiləm ki, indiki anda bunun mümkün olduğunu müəyyənləşdirəm. Bütün hallarda Azərbaycan əsgərlərini Azərbaycanın iddia etmək xəyalına düşdüyü, ermənilərin əlində olan vilayətləri almağa göndərməkdən söhbət belə gedə bilməz”.

Özünün dediyi kimi, Azərbaycanın daxili siyasəti haqqında az məlumatlı olan Çiçerin Bakının tələblərinin təmin olunmasının çox dəhşətli bir mənzərəsini cızırdı. O yazırdı: “Digər yol bizim hərbi hissələr tərəfindən tutulmuş, qeyd edilən yerlərin Azərbaycana hədiyyə edilməsidir. Nərimanov bilavasitə bu kombinasiyanı nəzərdə tutur. Daxili siyasəti müsəlman kütlələrinin əhəmiyyəti hissəsi ilə kəskin ixtilafa gətirib çıxarmış Bakının sovet hökuməti mübahisəli elan olunmuş yerləri kompensasiya kimi Azərbaycan üçün əldə etmək yolu ilə millətçi əhval-ruhiyyəli ünsürləri öz tərəfinə çəkmək istəyir. Bu kombinasiyanın sovet hissələrinin əli ilə edilməsi tamamilə yolverilməzdir. Bizim rolumuz tamamilə obyektiv və müstəsna dərəcədə qərəzsiz olmalıdır. Əgər biz bir millətin əleyhinə digər millətə söykənsək, bu, bizim bütün Şərq siyasətimiz üçün faciəli səhvə gətirib çıxarar. Hər hansı əraziləri ermənilərdən alıb və bizim əlimizlə onu Azərbaycana vermək bizim Şərqdə bütün siyasətimizə tamamilə yanlış rəng verərdi”.

Vəziyyəti süni şəkildə mürəkkəbləşdirən Çiçerin ondan çıxış yolunu Rusiya hərbi hissələri tərəfindən tutulmuş və yalnız sovetləşmədən sonra mübahisəli elan olunmuş ərazilərin Rusiya işğal rejiminə tabe edilməsi haqqında qərar qəbul edilməsində görürdü. Onun fikrincə, müvafiq əlverişli siyasi şərait yaranana qədər bu ərazilər nə Azərbaycana, nə də Ermənistana verilməli idi.

Çiçerin məsələnin belə qoyuluşuna Ermənistanla müqavilə bağlamaq aləti kimi baxırdı. O yazırdı: “Yalnız hərbi status-kvo zəminində bizim Zaqafqaziyada sülh siyasətimizin həyata keçirilməsinin zəruriliyi naminə Ermənistanla müqaviləyə ümid bəsləmək olar. Bununla bağlı hamı deyir ki, biz indi oralarda hazırda əlimizdə olan ərazilərdən başqa yeni ərazilər tutmaqdan imtina etməliyik. Ermənistan Respublikası ilə biz nə qədər mümkünsə tez müqavilə bağlamağa cəhd göstərməliyik”.

* * *

Georgi Çiçerin öz təkliflərinin bir hissəsini rəsmiləşdirə bildi və Qafqaz cəbhəsi Hərbi İnqilab Şurasına göndərdiyi təlimatda o, Mərkəzi Komitə adından bildirdi ki, Ermənistanla Azərbaycan arasında mübahisəli sayılan ərazilərə heç bir Azərbaycan və ya erməni hakimiyyət orqanları buraxıla bilməz. Mübahisəli elan olunan ərazilər Azərbaycan əraziləri olduğundan və Azərbaycan hakimiyyət orqanlarının nəzarətində olduğundan bu qərar Azərbaycanın suveren hüquqlarına və ərazi bütövlüyünə kobud şəkildə müdaxilə idi.

**Ardı var**

596:1.QXD 29.09.2024 16:19 Page 6



# ŞƏRƏF XAN BİDLİSİNİN “ŞƏRƏFNAMƏ” ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

*(Əvvəli ötən sayımızda)*

Beləliklə, həmin bölgü sistemi təkcə Diyarbəkirə aid olmadı. Van əyaləti də 37 ocaqlığa bölündü və sultan sarayına tabe olan böyük hökmdarlığa ayrıldı. Bunlardan:

I. Heqari hökmdarlığı idi. Bu əmirlik 10 min nəfər silahlı qüvvə saxlamalı və müharibə zamanı onu 50 minə çatdırmalı idi.

II. Bidlis hökmdarlığı idi. O da öz hərbi qüvvəsini Heqari əmirliyi kimi təşkil etməli idi.

III. Mahmudi hökmdarlığı idi. Bu əmirlik 6 min nəfərdən ibarət silahlı qüvvə saxlamalı idi.

IV. Mahmudi əmirliyi ilə qonşu olan Pinyaniş əmirliyi idi ki, onun da daimi qoşun qüvvəsi 6 min nəfər olmalı idi (98, 302). Bundan başqa, Osmanlı ərazisinin təhlükəsizliyini qorumaq məqsədilə bir neçə kürd tayfası Azərbaycan sərhədlərinə göçürüldü. P.İ.Avreyanov yazır ki, bu tayfalar öz sıralarından inzibati məmurlar təşkil edib və Osmanlı dövlətinə xidmət etmək şərtilə həmişəlik olaraq vergi verməkdən azad edilirdilər (9, 2-3). Övliya Çələbi yazır ki, yuxarıda göstərilən bu bölgüdən sonra səfəvilər dövlətində yalnız Qotur, Pirədüzi, Cülani və Dünbili əmirlikləri qalmışdı (48). «İslam ensiklopediyası»nda isə Səfəvilər dövlətində təkcə Kirmanşah kürdlərinin qaldığı göstərilir (132, 1207). Bununla da Kürdüstanın işğal edilməsi və onun birinci dəfə Osmanlı-İran dövlətləri arasında bölünməsi işi qurtardı. Kürdüstanda gedən bu müharibədə başda Məhəmməd paşa olmaqla, dörd Osmanlı paşası və o zaman Şərq ölkələri üçün həyati əhəmiyyəti olan çoxlu top, tüfəng və təxminən 42 min türk əskəri iştirak etmişdir. Əhməd Rasimin yazdığına görə 1516-cı ildə vəzir əzəm Sənan paşanın 40 min nəfərlik qoşunu da Diyarbəkirə gəlmişdi (53, 273). Qızılbaşlara qarşı vuruşmada müxtəlif kürd əmirlərindən başqa Mövlana İdris və oğlu Əbu-Müvahib başda olmaqla bir çox kürd əmirləri və təxminən 35 min nəfərdən artıq kürd döyüşçüsü iştirak edirdi.

Kürdüstanın bölünməsi uğrunda gedən bu müharibədə Səfəvilər dövləti tərəfindən Qara xan Ustaclu və onun qardaşları Ulaş bəy, Süleyman xan və Əvəz bəy iştirak edirdilər. Qızılbaş döyüşçülərinin sayı haqqında əlimizdə düzgün məlumat yoxdur. Tədqiqatçıların yazdığına görə bü müharibənin gedişində çoxlu kürd öldürülmüşdü.

Göstərilən faktlardan məlum olar ki, kürd döyüşçülərinin qırılmasının bir səbəbi də Osmanlı qoşunlarının odlu silahları yaxşı idarə etmələri, hərbi qaydaları yaxşı bilmələri, sərəncamlarında olan kürdlərin ən ağır vuruşmalara göndərilmələrindən ibarət olmuşdur.

Nəhayət, Kürdüstan vuruşmalarında Osmanlı hökumətinin silahlı qüvvəsi və Səfəvilər dövlətindən narazı olan kürd əmirlərinin fəal iştirakı nəticəsidə 1 Sultan Səlimin qələbəsi ilə qurtardı.

«Münşaat səlatin» dəki məlumata görə, həmin qələbə münasibəti ilə Biqli Məhəmməd paşa, I Sultan Səlim xana məktubla bərabər Qara xanın başını da göndərmişdi. O, məktubda qeyd edirdi ki: «Kürdüstan bəyləri ilə yekdil olub, düşmənə qalib gəldik, budur bir qrup döyüşçü ilə Qara xanın başı qulluğunuza göndərilir, ümid edirik ki, həmişə düşmənlərin başı sizin ləkədkubunuz[30] olacaqdır» (98, 418 –419).

I Sultan Səlim Diyarbəkir əyalətini mərkəz təyin edərək ayrıca Kürdüstan ordusu yaratdı. Ordunun rəhbərliyi, əyalət və vilayətlərin bəylərbəyi vəzifəsini Osmanlı paşalarına verildi. Bu paşalar kürdlər qarşısında qeyri-məhdud hüquqa malik idilər. Osmanlı hökumətinin bu qələbəsi Kürdüstanın rəsmi bölünməsinin və kürd xalqının ağır vuruşmalarla üz-üzə gəlməsinin əsasını qoydu… Kürdüstan uzun zaman davam edən Osmanlı-İran müharibələrinin meydanına çevrildi. Kürd əmirləri ilə I Sultan Səlim arasında bağlanan müqavilə Sultan Süleyman Qazi zamanında (1519–20-1566) tamamilə unuduldu. Daxili müstəqillik hüququna malik olan kürd əmirləri bir-birinin ardınca irsi hüquqlarından məhrum oldular. Kürd xalqı Osmanlı zadəganları üçün ağır vergi mükəlləfiyyəti daşımalı idilər. Osmanlı-İran müdaxiləsi ilə əlaqədar olaraq XVI əsrdə kürd tayfaları arasındakı daxili vuruşmalar da kücləndi.

Kürdüstanda ağalıq edən Osmanlı paşaları kürd tayfalarını bir-birinə qarşı qoymaq üçün müxtəlif yollardan istifadə edirdilər. Beləliklə də onlar qardaş bir xalqın arasında nifaq salırdılar. Məsələn, 1586-cı ildə vəzir Fərhad paşa Dünbili tayfası ilə Mahmudi tayfası arasında qəsdən vuruşma saldı. Bidlisi yazır ki: «Həmin vuruşma nəticəsində 80 nəfərdən çox kürd öldürüldü (76, 316-317). Dünbili tayfasının başçısı Nəzər bəy də bu vuruşmada öldürüldü. Onun qardaşı Qılınc bəy isə bu məsələ ilə əlaqədar şikayət etdisə də, bir nəticə hasil olmadı. Bidlisi göstərir ki: «Şikayətə baxılan zaman mən də iştirak edirdim. Fərhad paşa məsələni ört-basdır etmək üçün onları barışdırdı» (76, 317).

Ümumiyyətlə, Kürdüstanın birinci dəfə bölünməsindən (1514) sonra kürd xalqının tarixində bu cür hadisələr adi bir şəkil almışdı. Həm Osmanlı, həm də Səfəvi dövlətinin kürd xalqına qarşı mənfi siyasətləri sonralar da Osmanlı sultanları və İran şahları tərəfindən davam etdirilirdi. Ona görə də XVI əsrin əvvəllərindən başlanan həmin siyasət kürd tayfa başçılarını müstəqillik hüququ uğrunda elə bir mübarizəyə qaldırdı ki, o mübarizə uzun illər davam etdi.

### SƏFƏVİLƏRİN KÜRD xalqına MÜNASİBƏTİ

XVI əsrin başlanğıcında Kürdüstanla qonşu olan İran ölkəsində ictimai-siyasi və iqtisadi vəziyyət son dərəcə gərgin idi. Ölkə bir neçə xırda feodallıqlara bölünmüşdü. Bu feodallıqlar arasında baş verən daxili müharibələr nəinki təkcə ölkənin siyasi birləşməsinə mane olurdu, eyni zamanda ölkə daxilindəki əlaqəni də çətinləşdirir və ticarətin inkişafını ləngidirdi. Daxili feodal müharibələri nəticəsində şəhər və kəndlər qarət edilir, əhali varyoxdan çıxırdı. Beləliklə də şəhər və kənd zəhmətkeşlərinin güzəranı daha da çətinləşir və Ağqoyunlu hakimiyyətinə qarşı ümumi narazılıq artırdı. Həmin dövrdə Ağqoyunlu hökuməti bu vəziyyətə son qoymağa qadir deyildi, çünki o hakimiyyətdən yalnız quru ad qalmışdı.

Beləliklə, XVI əsrin lap əvvəllərində ölkəni siyasi cəhətdən birləşdirmək, vahid mərkəzləşmiş dövlət yaratmaq işi tarixi bir zərurət kimi qarşıda dururdu. Məhz belə bir çətin dövrdə I Şah İsmayıl Səfəvi Azərbaycanda yeni dövlət yaratmaq təşəbbüsünə düşdü. O, ata tərəfindən özünü Əli nəsli və şiələrin rəhbəri, ana tərəfindən isə Ağqoyunlu sülaləsinin həqiqi varisi hesab edirdi[31]. I Şah İsmayıl yeni hakimiyyət yaratmaq uğrunda mübarizəyə başlayaraq 1499-cü ildə öz tərəfdarları ilə birlikdə Ərdəbil şəhərinə gəldi. Bir il sonra 7 min nəfər müridin köməyi ilə Şirvanşah Fərrux Yəssarı məğlub etdi. Həmin ildə Şah İsmayıl şiddətli vuruşmadan sonra Bakını da özünə tabe edə bildi. O, Şərur kəndində baş verən müharibədə Ağqoyunlu Əlvənd Mirzəni məğlub edib çoxlu sərvət: at ilxısı, malqara ələ keçirtdi. Həmin vuruşmada məğlub olan Əlvənd Mirzə Ərzincana qaçdı. 1501-ci ildə Şah İsmayıl Səfəvi Təbrizə daxil olub təntənəli surətdə özünü şah elan etdi.

Beləliklə də, Azərbaycanda Səfəvilər dövləti yarandı. Bu dövlət dərhal şiə məzhəbini rəsmi dövlət dini elan etdi və bu haqda şah tərəfindən (112, 34) fərman verildi. I Şah İsmayıl Səfəvinin hakimiyyətə keçməsində ona yardım edən türk dilli Ustalu, Şamlu, Rumlu, Təkəlu, Zülqədər, Əfşar və Qacar tayfaları Qızılbaş ordusunu təşkil etdilər. Onlar şahın bütün işğallarında iştirak edib, alınan vilayətlərin başçısı təyin olunurdular. I Şah İsmayıl tərəfindən əsası qoyulan Qızılbaş ordusunun əsas qüvvəsini ox, kaman, qılınc, nizə, təbərzin və qalxanla silahlanmış piyada və çoxlu süvari qoşun təşkil edirdi.

Beləliklə, I Şah İsmayıl Səfəvi öz hakimiyyəti dövründə Azərbaycan və İranda vahid mərkəzləşmiş dövlət yaratmaq üçün böyük hərbi ordudan və Səfəvilərin müridlərindən istifadə etmişdir. Bidlisi yazır ki: «Şahın şöhrət və şücaətini eşidən şiələr Suriyadan, Türkiyədən və Kürdüstandan gələrək, Səfəvilərin bayrağı altında birləşdilər» (76, 69). I Şah İsmayıl Səfəvi hərbi və mənəvi cəhətcə silahlanmış bu böyük qüvvəyə istinad edərək, 1502-ci ildə Həmədan yaxınlığında baş verən müharibədə Ağqoyunlu Sultan Muradı da məğlub etdi. Mənbələrdəki məlumata görə həmin vuruşmada Ağqoyunlulardan 10 min nəfər öldürülmüş və çoxlu əsir alınmışdı (59, 68; 113, 83).

1510-cü ildə I Şah İsmayıl özbək Şebk xanla (ona Şeybani xan da deyilir) apardığı müharibədə onu məğlub edib, Xorasan əyaləti ilə birlikdə Mərv, Bəlx və Herat şəhərlərini də ələ keçirtdi.

Beləliklə, XVI əsrin əvvəllərində I Şah İsmayıl Səfəvi Azərbaycan və İran ölkəsində olan bir sıra feodallar üzərində qələbə çaldı. Əldə etdiyi torpaqları Qızılbaş sərkərdələrinə tiyul şəklində tapşırdı. XVI əsrin ortalarından




Səfəvilər dövlətinə tabe olan 74 əyalət və vilayət əmirlərindən 60 nəfəri azərbaycanlı idi. I Şah İsmayıl 1504-cü ildə Osmanlı sultanı II Bayəzidə məktub yazıb tələb edirdi ki, Osmanldı vilayətlərindən Ərdəbilə ziyarətə gələn səfəvi sülaləsinin müridlərinə toxunmasınlar və onların ziyarətə gəlmələrinə mane olmasınlar. Bu barədə «Münşaat Səlatin» də belə deyilir: «Sultan Bayəzid I Şah İsmayıla cavab olaraq bildirdi ki, Ərdəbilə gəlmək istəyən bir çox zəvvarın məqsədi ziyarətə gəlmək deyil, əskərlik xidtmətindən qaçmaqdır. Əgər onların Azərbaycana gəlməsi müvəqqəti olarsa, buna heç kəs mane olmaz» (98, 345-346). I Şah İsmayıylla Sultan Bayəzid arasındakı bu məktublaşma gələcəkdə baş verən böyük müharibələr və dini toqquşmalar üçün müqəddimə oldu. Osmanlı ölkəsində olan şiələr I Şah İsmayılın bu təşəbbüsündən ruhlanıb sultan hakimiyyətinə qarşı üsyan qaldırdılar.

Şah öz şiə tərəfdarlarını Azərbaycana gətirmək məqsədilə Nurəli xəlifə Rumlunu o mahala göndərdi. Xəlifə Qara Hasar rayonuna çatan zaman Osmanlı hökumətinə qarşı üsyan edən şiələrdən 4 min nəfər atlı öz ailələri ilə birlikdə onunla birləşdi (59, 135). Xəlifə qayıdarkən bir sıra kürd vilayətlərini, o cümlədən Ərzincanı, Məlatiyyə, Xonc və sairəni qarət etdi (59, 135). Həmin tarixdən etibarən, yəni 1506-cı ildə şah öz istilalarını Azərbaycan və İran torpağından xaricə yönəltdi. O, Kürdüstan, Ermənistan, Gürcüstan və İraq-Ərəb ölkələrini də işğal etməyə hazırlaşdı. Şah ilk dəfə olaraq Kürdüstanı istila etməyə başladı, çünki Ağqoyunlular tərəfindən işğal edilmiş bir sıra kürd vilayətlərini o, özünün həqiqi ərazisi hesab edirdi.

Kürd vilayətlərinin Qızılbaşlar tərəfindən qarət edilməsi kürd xalqının ümid gözlədiyi Səfəvilər dövlətinin ilk zərbəsi oldu. Bundan sonra Şah İsmayıl Səfəvi kürd əmirliklərini bir-birinin ardınca istila edib Qızılbaş sərkərdələrinə tapşırdı (76, 124-407). Mənbələrdəki məlumata görə o, hakimiyyətinin ilk vaxtlarında (1500-1510-cu illərdə) bir sıra istilalarla məşğul olmuş və 5 böyük müharibələrdə qalib gəlmişdir (75, 8). Həmin dövrdə Şah İsmayıl Azərbaycan və İran ölkəsindən başqa, Kürdüstanın çox hissəsini və Bağdadı da işğal etmişdir (92, 392). I Şah İsmayıl Səfəvinin bu siyasətindən kürd xalqı başqa xalqlara nisbətən daha çox zərər görmüşdür.

K.Marks I Şah İsmayıl Səfəvinin istilaçı bir hökmdar olduğunu qeyd edərək yazır: «14 illik hakimiyyəti dövründə o, 14 əyaləti fəth etmişdir» (1, 206). Səfəvi şahları tərəfindən həyata keçirilən bu siyasət XVI əsrin axırına qədər davam etdi. İskəndər Münşi yazır ki: «II Şah İsmayıl hər bir tayfa əmirinə müəyyən bir mahalı bəxş edirdi. O cümlədən Ələşkərd vilayətini də Sulaq Hüseyn Təkəluya verdi və onu Kürdüstana göndərdi» (47, 212). Bu meyl I Şah İsmayılda daha çox olmuşdur. Buna görə də Şah İsmayıl öz hakimiyyətinin ilk vaxtlarından Kürdüstanı silah gücü ilə istila etməyə başladı. Bidlisi göstərir ki: «O, Diyarbəkir, Mosul və Səncər vilayətlərini işğal etdi. Cəzirə vilayətini istila etmək üçün qoşun göndərdi» (76, 124).

*(Ardı gələn sayımızda)*

